**İddiaçıların xarici dil üzrə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanlarında iştirak etmələri üçün qeydiyyat**

**Təlimat**

Elektron ərizə ilə iş üçün iddiaçı **ekabinet.dim.gov.az** internet səhifəsində **"Şəxsi kabinet"** yaratmalı və həmin kabinetin pul hesabına tələb olunan pul vəsaitini əlavə etməlidir. İddiaçı yalnız **"Şəxsi kabinet"**inin istifadəçi adı və parolundan istifadə etməklə ərizə doldurub onu təsdiqləyə bilər.

İddiaçı **eservices.dim.gov.az/erizedok/erize** internet səhifəsinə daxil olur, login bölməsində "**Şəxsi kabinet**"inin istifadəçi adını və parolu müvafiq sahələrə daxil edib "**Daxil ol**" düyməsini basır.

Elektron ərizə forması şəxsi məlumatlar, təhsil haqqında məlumatlar, fəlsəfə doktoru təhsili haqqında məlumatlar və imtahan məlumatları təsvir edilən bölmələrdən ibarətdir.

**"Şəxsi məlumatlar"** bölməsində iddiaçı heç bir dəyişiklik edə bilməz (bu məlumatları yalnız "Şəxsi kabinet"də dəyişmək olar). Bu bölmədə yalnız elektron poçt ünvanı qeyd edilməlidir.

**"Təhsil haqqında məlumatlar"** bölməsində iddiaçı magistratura səviyyəsində, yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) təhsili haqqında məlumatları, xarici dil və tərcümə üzrə ixtisaslaşmanı bitiribsə, həmçinin ixtisaslaşma dilini müvafiq bölmələrdə qeyd etməlidir. Magistratura (tibbi təhsildə həkim-mütəxəssis) təhsilini Azərbaycan Respublikasında bitirən iddiaçılar haqqında məlumatlar Tələbə-Məzun Dövlət İnformasiya Sistemində (TMMS) olmalıdır. Bu bölmədəki "TMMS" düyməsini sıxmaqla həmin məlumatları görmək olar. Əgər iddiaçının təhsili haqqında məlumatlar TMMS-də aşkar edilməsə, iddiaçı müvafiq bölmədə diplomunun surətini yükləməlidir. Xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təhsil haqqında sənədlərinin tanınması haqqında şəhadətnamənin surətini də ərizələrinə yükləməlidirlər. Yalnız bundan sonra iddiaçı ərizəsini təsdiq edə bilər.

**Diqqət! Etibarsız sənəd sistemə yüklənməsi aşkar edildikdə ərizənin təsdiqi ləğv edilir.**

**"Fəlsəfə doktoru təhsili haqqında məlumatlar"** bölməsində iddiaçı fəlsəfə doktoru təhsili aldığı müəssisə və ya təşkilatın adını və ixtisası müvafiq bölmələrdə qeyd etməlidir.

**"İmtahan məlumatları"** bölməsində iddiaçı imtahan verəcəyi bölməni, imtahan verəcəyi xarici dili müvafiq bölmələrdə qeyd etməlidir. **Əcnəbilər və vətəndaşlığı olmayan iddiaçılar istədikləri halda bu bölmədə xarici dil və (və ya) Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmək üçün qeydiyyatdan keçə bilərlər**.

İddiaçı ərizəsini yalnız onun bütün bölmələri düzgün doldurulduqdan sonra təsdiq edə bilər.

**Diqqət! İmtahana yalnız ərizəsi təsdiq edilən iddiaçılar buraxılacaqlar.**